# YUBİLEYLӘR

## LALӘ ӘLİZADӘ – 70



**Lalə İkram qızı Əlizadə** 5 fevral 1950-ci il tarixində Bakı şəhərində ziyalı ailəsində dünyaya gəlib. 1967-ci ildə 190 №-li orta məktəbi bitirib, 1967-1972-ci illərdə ADU-nun (indiki BDU) Filologiya fakültəsində təhsil alıb. O, əmək fəaliyyətinə 1972-ci ildə "Azərbaycan müəllimi" qəzetində başlayıb. 1974-1978-ci illərdə Bakı şəhəri 172 və 161 №-li orta məktəblərdə Azərbaycan dili və ədəbiyyat müəllimi, Yasamal Rayon Xalq Maarif şöbəsində metodist kimi çalışıb. 1978-1981-ci illərdə AMEA-nın Nizami adına Ədəbiyyat İnstitutunun aspiranturasında təhsil alıb, 1985-ci ildə AMEA-nın müxbir üzvi Azadə Rüstəmovanın rəhbərliyi altında "Məhəmməd Füzuli yaradıcılığında alleqoriya" mövzusunda namizədlik dissertasiyası müdafiə edib. 1989-cu ildən indiyədək işlədiyi Azərbaycan Memarlıq və İnşaat Universitetinin "Azərbaycan dili və pedaqogika" kafedrasında əvvəl müəllim, sonra baş müəllim olub, hazırda dosent vəzifəsində çalışmaqdadır. L.Əlizadə 2017-ci ildə AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu nəzdində Müdafiə Şurasında "Klassik Azərbaycan ədəbiyyatında alleqoriya (XII-XVI əsrlər)" mövzusunda doktorluq dissertasiyası müdafiə edərək filologiya elmləri doktoru elmi dərəcəsini alıb.

Uzun illər Respublika Müəllimləri Təkmilləşdirmə və İxtisasartırma İnstitutunda ədəbiyyatın tədrisi metodikası üzrə mühazirələr oxuyan Lalə Əlizadə ölkədə və xaricdə dərc olunan 100-ə yaxın elmi, ədəbi, publisistik, metodik məqalənin müəllifidir. Alimin "Füzulinin gizli sözü" (1989), Füzulini tədris edərkən" (1995), "Böyük Füzulinin yadigarı" (1996), "Məhəmməd Füzuli" (2009), "Söz gözəlinin örtüyü" (2016), "Azərbaycan ədəbiyyatında alleqoriya" (2020) kitabları, "Azərbaycan dili və nitq mədəniyyəti" fənninin ali məktəblərdə tədrisi üçün hazırladığı proqram (2019) çapdan çıxıb.

Dövlət televiziyası və digər media vasitələrilə müntəzəm şəkildə klassik Azərbaycan ədəbiyyatı, ədəbi dilimizin tədrisi və təbliği ilə əlaqədar çıxışlar edən L.Əlizadə M.Gəncəvi, M.Füzuli və Ə.Vahid adına ədəbi mükafatlara layiq görülmüşdür.

Lalə Əlizadənin bütün fəaliyyəti Azərbaycan klassik ədəbiyyatının tədqiqi , tədrisi və təbliğinə hər edilmişdir. O, bütün həyatı boyu bu üç istiqamətdə çalışmış, vaxtını, gücünü, enerjisini əsirgəməmişdir. Şeirsevərlər, klassik poeziya tədqiqatçıları arasında "Füzulinin qızı" adını almış Lalə xanımı yaşadan, yeni-yeni axtarışlara sövq edən klassik poeziyaya, Füzuli sözünə hədsiz məhəbbət və sədaqət olmuşdur. Alim elmi yaradıcılığında klassik ədəbiyyatımızda alleqoriyadan istifadə xüsusiyyətlərinə xüsusi fikir vermişdir. Hələ 1985-ci ildə AMEA-nın müxbir üzvü Azadə Rüstəmovanın rəhbərliyi ilə müdafiə etdiyi "Füzuli yaradıcılığında alleqoriya" mövzusunda dissertasiya ədəbi mühitdə böyük maraqla qarşılanmışdı. Çünki bu elmi işdə dahi Füzulinin alleqoriyaları bütün təkraredilməzliyi, orijinallığı ilə araşdırılmışdı. Tədqiqatçı şeirdə işlətdiyi alleqiriyaların özəlliklərini göstərməklə Füzuli sənətinin böyüklüyünü, möhtəşəmliyini bir daha nəzərə çatdırırdı. Bu istiqamətdə axtarışları və tapıntıları L.Əlizadənin "Füzulinin gizli sözü" (1989), "Füzuli tədris edərkən" (1995), "Məhəmməd Füzuli" (2011) və s. kitablarında da əksini tapmışdır. Lakin artıq bu monoqrafiyalarından görünür ki, tədqiqatçı yalnız Füzuli yaradıcılığının tədqiqi ilə kifayətlənmək fikrində deyil. O, bütövlükdə klassik ədəbiyyatımızı araş-

dırmaq, alleqoriya problemini belə geniş bir miqyasda tədqiq etmək fikrində idi. Nəhayət ki, onun bu istiqamətdə araşdırmaları "Klassik Azərbaycan ədəbiyyatında alleqoriya (XII-XVI əsrlər)" adlı iri həcmli tədqiqat işinə çevrildi. Lalə xanım 2017-ci ildə Nizami adına Ədəbiyyat İnstitutu nəzdindəki Müdafiə Şurasında uğurla doktorluq dissertasiyası müdafiə edərək filologiya elmləri doktoru elmi dərəcəsinə layiq görüldü. Adı çəkilən elmi işdə klassik ədəbiyyatımızda işlədilən alleqoriya bədii-estetik kateqoriya kimi ədəbiyyatşünaslığımızda ilk dəfə fundamental tədqiqini tapmışdır. Alleqoriyanı gerçəkliyin bədii-simvolik inikas forması kimi təqdim edən alim mifologiyada, Quranda, dini ədəbiyyatda, təsəvvüf dünyagörüşündə alleqoriya məsələsini nəzərdən keçirir, bu baxımdan Xaqani, Nizami, Füzuli yaradıcılığını ayrıca tədqiq edir.

Fikrimizcə, əsərin ən önəmli cəhəti ondan ibarətdir ki, tədqiqatçı burada XII-XVI əsrlər Azərbaycan ədəbiyyatında alleqoriyanın keçdiyi inkişaf yolunu, alleqoriyadan bədii ifadə vasitəsi kimi istifadənin tarixini yazaraq ortaya qoymuş, ədəbiyyatımızda alleqorik obrazları ədəbi və fəlsəfi məktəblər çərçivəsində kompleks tədqiqata cəlb etmişdir.

Lalə Əlizadə həm də ədəbiyyatımızın tədrisi ilə məşğul olan gözəl pedaqoqdur. Halhazırda Memarlıq və İnşaat Universitetinin dosentidir, tələbələrə klassik ədəbiyyatımızın incəliklərini öyrətməklə məşğuldur. Lalə xanıma yaradıcılığının müdrik çağında uzun ömür, elmi və pedaqoji fəaliyyətində böyük uğurlar arzulayırıq.

**Paşa Kərimov**
*filologiya üzrə elmlər doktoru, dosent*